# Soyqırımı qurbanları anılmışdır

Gəncə Dövlət Universitetində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı professor-müəllim heyəti və tələbələrin iştirakı ilə videokonfrans keçirilib.



Videokonfransda universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva çıxış edərək diqqətə çatdırıb ki, son 200 ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılmışdır: “Bu dəhşətli hadisələrdən sonra təxminən uzun illər ərzində xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmamışdır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Ulu Öndər Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan edildi”.

Tədbirdə digər çıxış edənlər isə bildirmişlər ki, 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmışlar. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Konfransda o da qeyd olunmuşdur ki, 2020-ci ildə Azərbaycanın qəhrəman Ordusunun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə dövlətimizin gücünü nəinki düşmənə, həm də bütün dünyaya göstərdi.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

Azərbaycan 2021.- 4 aprel.- S.8.